

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 27 (21.179)

10 fevral 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasında Kommunist Partiyası fraksiyasının sədri Gennadi Züqanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası və beynəlxalq əməkdaşlıq sahələrində uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da dərinləşəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparıldı.

Gennadi Züqanov Rusiya Federasiyası Kommunist Partiyasının xatirə ordenini Prezident İlham Əliyevə təqdim etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Avropa Stolüstü Tennis Birliyinin prezidenti Ronald Krameri qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 9 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında vergi sisteminin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Vergilər Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşları da vardır.

**3-cü dərəcəli "Vətənə xidmətə görə" Azərbaycan Respublikasının ordeni ilə**

Mahmudov Əli Muxtər oğlu

**"Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı ilə**

Hacıyev Qurban Şükür oğlu

**"Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı ilə**

Hüseynov Kamran Muxtar oğlu

**"Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı ilə**

İbrahimov Naib Lətif oğlu

## Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair müşavirə keçirilmişdir

Fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair müşavirə keçirilmişdir.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye naziri Famil Seyidov demişdir ki, 2014-cü ildə də muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı təmin olunmuş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, özəl bölmənin inkişafına dövlət dəstəyi davam etdirilmişdir. 2004-2014-cü illərdə ümumi tutumu 12 min 250 ton olan soyuducu anbarlar, tutumu 27 min ton olan uzunmüddətli və 43 min 400 ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 12 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatı istifadəyə verilmişdir. Hazırda muxtar respublikada 352 növdə məhsul istehsal olunur və 336 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.





Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Elşad Əliyev demişdir ki, muxtar respublikada meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının inkişafına əlverişli şərait yaratmışdır. 2014-cü ilin məhsulu üçün sahələrdən 103 min ton taxıl, 41 min tondan artıq kartof, 66 min 731 ton tərəvəz, 36 min ton meyvə toplanmışdır. Ötən il muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarına 4 milyon 920 min manat yardım və subsidiyalar ödənilmişdir. Bütün bunlar kənd təsərrüfatının dinamik inkişafı ilə nəticələnmiş, bütövlükdə, kənd təsərrüfatının ümumi məhsulu 355 milyon 157 min manat təşkil etmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov çıxış edərək bildirmişdir ki, 2014-cü ildə bank sistemində maliyyə sabitliyi təmin edilmiş, bank aktivlərinin keyfiyyət göstəriciləri məqbul həddə qorunmuşdur. Muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən 2014-cü il ərzində 54 milyon 457 min manat kredit verilmişdir ki, bunun da 21 milyon 362 min manatını qısamüddətli, 33 milyon 95 min manatını uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 17 milyon 956 min manatı kənd təsərrüfatının, 5 milyon 674 min manatı sənayenin, 7 milyon 180 min manatı tikintinin, 4 milyon 702 min manatı kommersiya sahibkarlığının inkişafına, 2 milyon 53 min manatı daşınmaz əmlak alınması üçün ipotekaya, 16 milyon 892 min manatı digər kommunal, sosial və istehlak sahələrinə yönəldilmişdir. Banklar tərəfindən 2014-cü il ərzində 2244 hüquqi, 36 min 13 fiziki şəxs olmaqla, 38 min 257 müştəriyə xidmət göstərilmiş, 107 hüquqi, 17 min 867 fiziki şəxs olmaqla, 17 min 974 müştəriyə yeni bank hesabı açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: "2014-cü ilin sosial-iqtisadi inkişafının yekunları bir daha göstərdi ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda əvvəlki illərdə əldə edilmiş inkişaf meyilləri qorunub saxlanmışdır. Ötən il yaradılmasının 90 illik yubileyini təntənəli şəkildə qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial həyatın bütün sahələrində dinamik inkişaf təmin olunmuşdur. İqtisadi tərəqqinin əldə olunmasında sahibkarlıq subyektlərinin özünəməxsus yeri və rolu vardır. Bu barədə ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur"***. Bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında sahibkarlığın inkişafı dövlət siyasətinin aparıcı istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxlanılır, iş adamlarının fəaliyyət dairəsinin genişləndirilməsi, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılıb. Bunun nəticəsidir ki, ötən il Ümumi Daxili Məhsulda özəl bölmənin payı 87 faizi ötmüşdür".

Qeyd olunmuşdur ki, daxili bazarın qorunması və yerli istehsalın inkişafı sahəsində son illər həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq, muxtar respublikada məşğulluq səviyyəsi yüksəlmiş, əhali tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları daha da artmışdır. Lakin bu imkanlardan, yaradılmış şəraitdən bəzən lazımi səviyyədə istifadə olunmur, müəssisələrin yaradılmasına dövlət maliyyə dəstəyi göstərilərkən layihələr düzgün qiymətləndirilmir, eləcə də xammal və istehlak bazarı amilləri nəzərə alınmır.

Ali Məclisin Sədri aid dövlət orqanlarına konkret tapşırıqlar verərək demişdir: "Maliyyə Nazirliyi növbəti ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlərin müvafiq orqanlar tərəfindən səmərəli və təyinatına uyğun istifadəsinə nəzarəti gücləndirməli, aid dövlət strukturları isə dövlət büdcəsinin vəsaitindən qənaətlə istifadə olunmasına çalışmalıdırlar. Həyata keçirilən maliyyə əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılmasına üstünlük verilməlidir. Nağdsız ödənişlərin həcminin artırılmasında böyük əhəmiyyət daşıyan POS-terminallardan səmərəli istifadənin təmin olunması məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Vergilər Nazirliyi fəaliyyətlərini gücləndirməlidirlər.

Daxili bazarın qorunması, məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi yerli xammal və əmək resurslarından səmərəli istifadə etməklə yeni istehsal müəssisələrinin yaradılmasını bundan sonra da diqqət mərkəzində saxlamalıdır. Təklif olunmuş biznes-planların qiymətləndirilməsinə məsuliyyətlə yanaşılmalıdır. Satış bazarı olan və yerli təsərrüfatçılıq ənənələrinə əsaslanan kiçik sahibkarlıq subyektlərinin yaradılmasına üstünlük verilməli, bu sahədə muxtar respublikanın bütün şəhər və rayonlarının imkanlarından istifadə olunmalıdır. Sahibkarlıq subyektlərinin normal fəaliyyətinə mənfi təsir göstərən amillər ciddi təhlil olunmalıdır. Nazirlik sahibkarlıq subyektləri ilə müvafiq dövlət orqanları arasında fəaliyyətin əlaqələndirilməsinə nail olmalıdır. Yeni yaradılan müəssisələrin fəaliyyətinin stimullaşdırılması məqsədilə qanunamüvafiq güzəştlərin tətbiq olunması nəzərdən keçirilməli, sənədləşmə zamanı yol verilən bürokratik əngəllərə son qoyulmalı, əsassız müdaxilə halları aradan qaldırılmalıdır. Ədliyyə Nazirliyi sahibkarlıq sahəsində yoxlamaların məlumat reyestrinin qanunvericiliyə uyğun aparılmasını təmin etməlidir".

Qeyd olunmuşdur ki, sahibkarlığın inkişafının dəstəklənməsi nəticəsində muxtar respublikada sahibkarlar təbəqəsi formalaşmışdır. Bunun nəticəsidir ki, dövlətin maliyyə dəstəyi ilə yanaşı, sahibkarların şəxsi vəsaitləri hesabına investisiya qoyuluşlarının həcmi də ilbəil artır. İqtisadiyyat və Sənaye Nazirliyi iqtisadi inkişafın üstün istiqamətlərinə uyğun yeni layihələrin icra edilməsinə diqqəti artırmalı, kreditlərin daha çox real sektorun inkişafına yönəldilməsi təmin edilməli,

Ardı 2-ci səhifədə






kənd təsərrüfatı sahəsində yaradılması nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə üstünlük verilməlidir.

"Sahibkarların fəaliyyətinin səmərəli təşkili üçün onlara təkcə maliyyə dəstəyinin göstərilməsi ilə kifayətlənmək olmaz", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, müvafiq sahədə uğur qazanmaq üçün sahibkarlara, xüsusilə fiziki şəxslərə zəruri iqtisadi biliklərin verilməsi də lazımdır. İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlar Konfederasiyası ilə birlikdə Biznes Mərkəzinin imkanlarından istifadə edərək sahibkarların maarifləndirilməsi, onlara beynəlxalq təcrübənin öyrədilməsi ilə bağlı müxtəlif kurs və treninqlərin təşkilinə diqqəti artırmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu ilə birlikdə bütün işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına diqqət yetirməlidir. Hər bir sahibkar tabeliyində çalışan işçilər üçün normal iş və istirahət şəraitinin yaradılmasına, xüsusilə istehsal müəssisələrində əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarət etməlidir.

Ali Məclisin Sədri demişdir: "Muxtar respublikanın sosial-iqtisadi inkişafında bank sektorunun rolu xüsusi əhəmiyyətə malikdir. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi 2015-ci ildə əhalinin maliyyə resurslarına və bank xidmətlərinə çıxış imkanlarının daha da yaxşılaşdırılması üçün maliyyə vasitəçiliyini genişləndirməli, təklif olunan xidmətlərin keyfiyyəti yüksəldilməlidir. Bank və kredit təşkilatları tərəfindən real iqtisadiyyata, xüsusilə kənd təsərrüfatına daha böyük həcmdə kreditlərin ayrılması, həmçinin onların çoxsahəli olması təmin edilməlidir".

Daxili bazarda süni qiymət artımının qarşısının alınması məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır ki, kənd təsərrüfatı və emal müəssisələrinin istehsal etdikləri məhsulların birbaşa istehsalçılar tərəfindən satışına şərait yaradan yarmarkaların təşkilini cari ildə də davam etdirsinlər. Yerli istehsalın qorunmasının, həmçinin istehlak bazarının keyfiyyətli məhsullarla təchiz olunmasının vacibliyini vurğulayan Ali Məclisin Sədri aid qurumlara tapşırıqlar verərək demişdir: "Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatlarının mövsümə uyğun olaraq tənzimlənməsini davam etdirməli, sərhəd-buraxılış məntəqələrində sanitariya və karantin mühafizəsi üçün tədbirlər müasir tələblər səviyyəsində təşkil olunmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi Dövlət Gömrük Komitəsi ilə birlikdə daxili bazarın yerli məhsullarla təminatı istiqamətində ardıcıl tədbirlər görməli, idxala nəzarət olunmalı, yerli məhsulların keyfiyyəti yüksəldilməlidir. Eyni zamanda xarici ticarət iştirakçıları olan sahibkarlıq subyektləri ilə əməkdaşlıq daha da artırılmalıdır. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi istehsal olunmuş məhsulların keyfiyyətinin yoxlanılması işini mütərəqqi təcrübələrdən istifadə etməklə davam etdirməli, sağlamlıq üçün zərərli məhsulların satışına yol verilməməlidir".

Ali Məclisin Sədri demişdir: "2015-ci il "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Əhalinin ərzaq məhsulları ilə təmin olunması, emal müəssisələrinin xammal təchizatındakı rolu, eləcə də əhalinin əksər hissəsinin kəndlərdə məskunlaşması və aqrar sektorda çalışması nəzərə alınaraq kənd təsərrüfatının inkişafı hər zaman diqqət mərkəzində saxlanılıb. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən edib. Bununla yanaşı, müvafiq qurumlar da kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün məhsul istehsalçılarına yaxından köməklik göstərməli və mütəxəssis məsləhətləri verməlidirlər. Əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə etmək üçün Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları bitkiçilik məhsullarının rayonlar üzrə yerli şəraitə uyğun əkilməsi, növbəli əkin sisteminin tətbiqi və torpaqların münbitliyinin artırılması ilə əlaqədar yerlərdə



mütəmadi olaraq maarifləndirici tədbirlər təşkil etməlidirlər. Sənayedə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların tətbiqi təşviq edilməlidir. Yeni texnologiyaların, suvarma və əkin üsullarının, qabaqcıl təcrübənin kənd təsərrüfatında tətbiqinə diqqət göstərilməli, keyfiyyətli toxum sortlarından istifadə olunmalı, Ümumi Daxili Məhsul istehsalında kənd təsərrüfatının payı artırılmalıdır. Torpağın münbitliyini artırmaq və yüksək məhsuldarlıq əldə etmək məqsədilə əkin zamanı torpaq altına qidalandırıcı gübrələrin vaxtında və normalara uyğun verilməsinə nəzarət olunmalı, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları gübrələrin istehsalçılara vaxtında çatdırılmasını təmin etməlidirlər".

Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə tapşırılmışdır ki, yerli icra hakimiyyətləri ilə birlikdə suvarma suyu ilə təchizatı yaxşılaşdırmaq məqsədilə mövcud su anbarları və sututarlarının doldurulmasını təmin etsinlər. Əkin sahələrini su ilə təmin etmək, eləcə də su itkisinin qarşısını almaq üçün su bölgüsünə mütəmadi nəzarət edilməli, sudan səmərəli istifadə olunmalı, kanal və arxların təmizlənməsi və bərpası vaxtında aparılmalıdır. Eroziya və şoranlaşmanın qarşısının alınması üçün kompleks təsərrüfat, aqrotexniki, meliorativ tədbirlər davam etdirilməlidir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac potensialının artırılması diqqət mərkəzində saxlanılmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nəzarəti artırmaqla yanaşı, tələbatdan artıq istehsal edilmiş məhsulların ixracı sahəsində də müvafiq iş aparmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə mövsüm dövründə məhsulun anbarlar tərəfindən alınmasını təşkil etməli, yaradılan süni maneələri aradan qaldırmalıdır. Eyni zamanda istixana komplekslərinin yaradılması və fəaliyyətinin genişləndirilməsi üçün də müvafiq işlər görülməlidir. Heyvandarlıq məhsulları ilə təchizatı yaxşılaşdırmaq məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları yeni cins heyvandarlıq komplekslərinin yaradılması və inkişafına xüsusi diqqət yetirməlidirlər. Quşçuluq, balıqçılıq və arıçılıq təsərrüfatlarının inkişafı istiqamətində səylər artırılmalıdır. Dövlət Baytarlıq Xidməti heyvanlar arasında müxtəlif xəstəliklərin qarşısını almaq məqsədilə epizootiya və peyvəndləmə tədbirlərini gücləndirməli, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin əhatə dairəsini genişləndirməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi qoruyucu meşə zolaqlarının salınmasını davam etdirməli, yaşıllıqların mühafizəsi və bərpası tədbirlərinə diqqəti artırmalıdır. Muxtar respublikanın flora və faunasının qorunması istiqamətində tədbirlər gücləndirilməlidir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ayrılan maliyyə vəsaitindən səmərəli istifadəni təmin etməli, həyata keçirilən tikinti-abadlıq işlərinin keyfiyyətinə nəzarəti artırmalıdır. İnşaat işlərinin yerinə yetirilməsində yerli istehsal məhsullarına üstünlük verilməli, keyfiyyətsiz materiallardan istifadənin qarşısı alınmalıdır. Əlavə xərclərə və vaxtından əvvəl təmir işlərinə yol verilməməsi üçün kommunikasiya xətlərinin çəkilişi ilə məşğul olan təşkilatların fəaliyyətində əlaqələndirmə və ardıcıllıq təmin olunmalıdır. Tikinti sektorunda bədbəxt hadisələrin qarşısının alınması üçün işçilərin fərdi və xüsusi mühafizə vasitələri ilə təchiz olunması, texniki təhlükəsizlik qaydaları barədə təlimatlandırılması nəzarətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri rabitə, nəqliyyat və energetika sahələri üzrə də konkret tapşırıqlar verərək demişdir ki, Rabitə və Yeni Texnologiyalar Nazirliyi muxtar respublikada universal telekommunikasiya və poçt xidmətlərinin inkişafı, simsiz internetin əhatə dairəsinin genişləndirilməsi üçün səylərini artırmalı, aidiyyəti orqanlarla birlikdə elektron hökumətin təşkili istiqamətində müvafiq işləri başa çatdırmalıdır. Nəqliyyat Nazirliyi muxtar respublikanın bütün yaşayış məntəqələrində rahat gediş-gəlişi təmin etmək məqsədilə xidmətin keyfiyyətinin yüksəldilməsinə diqqəti artırmalı, mövcud nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün müvafiq işlər görməlidir. Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi enerjidaşıyıcılarından qənaətlə istifadəni təmin etmək üçün tədbirləri davam etdirməlidirlər.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə tapşırılmışdır ki, muxtar respublikanın kənd yaşayış məntəqələrində mütəmadi olaraq qrafik əsasında səyyar xidmətlər göstərilməsini davam etdirsin. Dövlət Baş Sığorta Agentliyi sığorta fəaliyyətinin canlandırılması, əhalinin sığortaya olan etibarının artırılması üçün bürokratik əngəlləri aradan qaldırmalıdır. Dövlət Statistika Komitəsi muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı təhlili materialların hazırlanaraq kütləvi informasiya vasitələrində verilməsini bundan sonra da davam etdirməlidir.

Vurğulanmışdır ki, yerli icra hakimiyyəti orqanları əkinəyararlı torpaq sahələrindən səmərəli istifadəni diqqət mərkəzində saxlamalı, salınmış yaşıllıqlara vaxtında aqrotexniki qulluq göstərilməsini təmin etməlidirlər. Yerlərdə abadlıq işlərinin keyfiyyətinə nəzarət gücləndirilməli, tullantılar vaxtında daşınmalı, istifadəyə verilmiş obyektlərin normal fəaliyyəti ilə yanaşı, onların qorunmasına da qayğı göstərilməli, müəssisə və təşkilatlarda nizam-intizam gücləndirilməlidir. Şəhər və rayonlarda vətəndaşların müraciətlərinə vaxtında və qanuni şəkildə baxılması təmin edilməlidir.

Təhsilin və elmin inkişafına xüsusi diqqət yetirilməsinin vacibliyini bildirən Ali Məclisin Sədri demişdir: "Təhsil Nazirliyi təhsil müəssisələrində tədrisin keyfiyyətinə nəzarəti gücləndirməli, fənn laboratoriyalarından və informasiya texnologiyalarından səmərəli istifadə olunmalıdır. Bədən tərbiyəsi dərslərinin idman zallarında keyfiyyətli keçirilməsinə nəzarət olunmalıdır. Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı dərslərin təşkilində muzeylərlə təhsil müəssisələri arasında yaradılmış interaktiv əlaqədən səmərəli istifadə edilməlidir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi aparılan elmi tədqiqatların səmərəliliyinə diqqəti artırmalı, elmin istehsalatda və səhiyyədə tətbiqi, iqtisadi səmərə verməsi istiqamətində müvafiq işlər aparmalı, gənc tədqiqatçıların yetişdirilməsi işində ardıcıllığı təmin etməlidir. Ali təhsil müəssisələri gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi səviyyəsini yüksəltməli, elmi dərəcəli kadrların hazırlanmasına, dissertasiya şuralarında müdafiə olunan elmi işlərin keyfiyyətinə diqqəti artırmalıdırlar. Müvafiq ixtisaslar üzrə tədris və elmi-metodik vəsaitlərin elmi şuralarda aid mütəxəssislərin iştirakı ilə müzakirəsi təmin olunmalıdır. Tədris və istehsalat təcrübələrinin keçirilməsində muxtar respublikanın müvafiq müəssisələrinin bazasından və imkanlarından səmərəli istifadə edilməlidir. Müəllim hazırlığı ilə məşğul olan ali təhsil müəssisələri pedaqoji kadr hazırlığı işini məktəblərlə uzlaşdırmalıdırlar".

Müşavirədə Səhiyyə Nazirliyinə rayon mərkəzi xəstəxanalarının, eləcə də kənd tibb müəssisələrinin kadr təminatının yaxşılaşdırılması məqsədilə müvafiq tədbirlər görməsi tapşırılmış və qeyd olunmuşdur ki, nazirlik tibbi heyətin ixtisasartırma kurslarına göndərilməsini, eləcə də rayonlarda müvafiq kursların təşkil olunmasını təmin etməli, səhiyyə xidmətinin səviyyəsini yüksəltməlidir. Sağlamlığın qorunması və sağlam həyat tərzinin təşviqi ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilməlidir. Tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün profilaktika, ilkin tibbi yardım və müalicə xidmətləri təkmilləşdirilməli, xüsusilə ilkin tibbi yardım sistemi inkişaf etdirilməlidir. İstehsal olunan məhsulun, göstərilən xidmətin keyfiyyəti gigiyenik tələblərə əməl olunmasından da asılıdır.

*Ardı 3-cü səhifədə*

Bu baxımdan Səhiyyə Nazirliyi öz səlahiyyətləri daxilində sanitar-gigiyenik şəraitə nəzarət etməli, xüsusilə ərzaq istehsalı müəssisələrində və vətəndaşlarla birbaşa ünsiyyətdə olan xidmət obyektlərindəki işçi heyətinin tibbi baxışdan keçməsinə diqqəti artırmalıdır.

Ali Məclisin Sədri demişdir: “Mədəniyyət və Turizm Nazirliyi fəaliyyətində ciddi dönüş yaratmalı, tabeliyində olan müəssisə və təşkilatlarda kadrların düzgün yerləşdirilməsinə və intizama riayət olunmasına nəzarəti artırmalıdır. Təhsil müəssisələri ilə muzeylər arasında interaktiv əlaqənin səmərəli təşkili məqsədilə muzeylərdə zəruri şərait yaradılmalı, muzey bələdçilərinin qaydalara əməl etmələri və aid sahə üzrə məlumat bazasını mənimsəmələri təmin edilməlidir. Gənclər və İdman Nazirliyi muxtar respublikada olan idman qurğu və obyektlərindən, eyni zamanda olimpiya-idman komplekslərindən istifadəyə və onların qorunub saxlanılmasına diqqəti artırmalıdır. İdman federasiyalarında gənclər vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi muxtar respublikada əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirləri davam etdirməli, əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillər aparmalı, peşə hazırlığını əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırmalı, əlillərin məşğulluğunun təmin edilməsinə nail olmalıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aid təşkilatlarla birlikdə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması üçün nəzərdə tutulmuş tədbirləri icra etməli, ailə, qadın və uşaqlarla bağlı məlumat bazasını təkmilləşdirməli, qadınların sağlamlıqlarının qorunması istiqamətində maarifləndirici tədbirləri davam etdirməlidir. Dövlət Sosial Müdafiə Fondu elektron xidmətlərin tətbiqi, o cümlədən məcburi dövlət sosial sığorta haqlarının “Onlayn ödəmə” rejimində həyata keçirilməsi və avtomatlaşdırılmış pensiya təyinatı ilə bağlı maarifləndirmə işlərini gücləndirməlidir”.

Müşavirədə hüquq-mühafizə orqanlarına maarifləndirmə və profilaktika tədbirlərinin davam etdirməsi, nizam-intizamın daha da möhkəmləndirilməsi, ictimai asayişin və sabitliyin qorunmasına diqqətin artırılması barədə müvafiq tapşırıqlar verilmişdir. Bildirilmişdir ki, Daxili İşlər Nazirliyi əhaliyə müvafiq xidmətlərin səyyar qaydada həyata keçirilməsini təmin etməli, şəxsi heyətin peşəkarlığını artırmalıdır. Fövqəladə Hallar Nazirliyi tikintiyə dövlət nəzarətinin qanunvericiliyə uyğun həyata keçirilməsinə nail olmalı, qeyri-yaşayış sahələrinin icbari sığortaya cəlb olunmasını təmin etməlidir. Ədliyyə Nazirliyi məhkəmə qərarlarının icrasına nəzarəti artırmalı, hüquqi aktların reyestrini təkmilləşdirməlidir. Dövlət Miqrasiya Xidməti əmək miqrasiyası sahəsində maarifləndirmə tədbirlərini gücləndirməli, qanunsuz fəaliyyətlə məşğul olan əcnəbilərlə profilaktik tədbirləri davam etdirməlidir.

Qeyd olunmuşdur ki, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluqçularının elektron reyestrinin yaradılmasını başa çatdırmalı, dövlət orqanlarında kadrlarla işi gücləndirməli, dövlət qulluğuna qəbul imtahanlarının dövriliyini təmin etməlidir. Kütləvi informasiya vasitələri mətbuatın ictimai nəzarət funksiyasını gücləndirməli, muxtar respublikanın inkişafında yaxından iştirak etməlidirlər.

Ali Məclisin Sədri müşavirəyə yekun vuraraq demişdir: “Ümumilikdə, 2014-cü ilin nəticələri deməyə əsas verir ki, 2015-ci ildə qarşıya qoyulmuş bütün vəzifələr icra ediləcəkdir. Bunun üçün isə hər bir dövlət orqanı və sahibkarlıq subyekti daha səylə çalışmalı, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər”.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 91-ci ildönümünün tamam olmasını bildirən Ali Məclisin Sədri bu münasibətlə muxtar respublika əhalisini təbrik etmiş və qeyd olunan sahələrdə fəaliyyətin təşkilində müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 6 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər məhsulların istehsalı və ixracı müəssisəsinin, məsaməli beton istehsalı, iaşə obyektinin, elektrik açarları istehsalı sahəsinin, eləcə də maldarlıq və heyvandarlıq təsərrüfatlarının yaradılmasına sərf olunacaqdır.

Tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikasının 2014-cü ildəki sosial-iqtisadi inkişafından bəhs edən filmə baxmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və müşavirə iştirakçıları Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan müxtəlif növdə ərzaq və sənaye məhsullarının, eləcə də sənətkarlıq nümunələri və əl işlərinin sərgisi ilə tanış olmuşlar.

Ali Məclisin Sədri Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillərə də baxmışdır. Bildirilmişdir ki, 2010-cu ildən fəaliyyətə başlayan zavodda 12 modeldə minik və yük avtomobilləri istehsal olunur.

Qeyd olunmuşdur ki, bütövlükdə, sərgidə 90 müəssisənin 129 növdə və 652 çeşiddə məhsulu nümayiş olunur. Həyata keçirilən məqsədyönlü tədbirlər istehsal olunan məhsulların sayının və çeşidlərinin artmasına səbəb olmuş, 1995-ci ildən ötən dövrdə muxtar respublikada 812 yeni istehsal müəssisəsi yaradılmışdır. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 ildə Ümumi Daxili Məhsul istehsalı 10,3 dəfə, sənaye məhsulunun həcmi 34,9 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,6 dəfə, əsas kapitala yönəldilən investisiyalar 11,5 dəfə, xarici ticarət dövriyyəsi 13,2 dəfə, o cümlədən ixracın həcmi 78 dəfə artmışdır. Təkcə 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamış, 3805 yeni iş yeri açılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Dövlət qulluqçuları and içiblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 15 sentyabr 2014-cü il tarixdə inzibati vəzifələrin altıncı-yeddinci təsnifatına uyğun olaraq, 340 vakant yerin tutulması məqsədilə elan edilmiş müsabiqədə iştirak etmək üçün 439 namizəd sənəd təqdim etmişdi. Müsabiqədə müvəffəqiyyət qazanaraq dövlət orqanlarında müvafiq vəzifələrə təyin olunmuş dövlət qulluqçularının fevral ayının 9-da Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində andiçmə mərasimi keçirilib. 72 nəfər dövlət qulluqçusu and içdikdən sonra andın mətnini imzalayıblar, onlara dövlət qulluqçularının andiçmə vərəqələri təqdim edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Etibar Musayev bildirib ki, Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu daim diqqət mərkəzində saxlayıb, ölkəmizdə dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri kimi 2000-ci ildə “Dövlət qulluğu haqqında” Qanun qəbul edilib. Bu qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri müəyyənləşdirilib.

Qeyd olunub ki, ölkəmizdə “Dövlət qulluğu haqqında” Qanunun qəbulundan sonra onun icrasını təmin etmək və tətbiqi mexanizmini yaratmaq üçün normativ aktlar qəbul edilib, müxtəlif əsasnamə və qaydalar təsdiq olunub. Həmçinin dövlət qulluğuna qəbul üçün müsabiqənin keçirilməsi, sınaq müddəti ilə staj keçilməsi, dövlət qulluqçularının attestasiyası, icbari sığortası, hakimiyyət səlahiyyətinin icrasına, qulluq stajına, ixtisas dərəcəsinə görə vəzifə maaşına əlavə haqqın verilməsi kimi məsələlər nizama salınıb, inzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu təsdiq edilib.

Etibar Musayev gənc dövlət qulluqçularının nəzərinə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılıb. Komissiyanın yaradılmasında əsas məqsəd dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının əlavə təhsili, attestasiyası və sosial müdafiəsi sahəsində, həmçinin dövlət qulluğu ilə bağlı digər məsələlərin qanunvericiliklə həyata keçirilməsini təmin etməkdir. Muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə uyğun dövlət idarəçiliyi sisteminin qurulmasına səbəb olub.

Komissiya sədri muxtar respublikanın müxtəlif idarə, müəssisə və təşkilatlarında dövlət qulluğuna qəbul edilən gənclərə dövlətçiliyimizin qorunmasında, onlara müraciət edən vətəndaşlara yüksək səviyyədə xidmət göstərilməsində uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

✍ **Muxtar MƏMMƏDOV**

***Çağdaş gedişat hərtərəfli inkişafın gələcəyinə nikbinlik yaratsa da, bu, bəşəriyyətin qlobal problemlərdən qurtulması anlamına gəlmir. Bu qlobal problemlərdən birincisi isə insanın özü-özünü xilas etməsidir. Bəşəriyyətin varolma səbəbi təbiətdir. Təbiətə vurulan zərbələrin də bəşəri dərd olması hamı üçün aydın olmalıdır. Bu gün qlobal problemlərə “qucaq açan” dünyamızda çağdaş gedişat yaradan da, ona qeyri-iradi təslim olan da insandır. Məhz buna görə də təbiətin xilası insanlığın xilasıdır. Bu heç də müasir dünyanın inkişafına ritorik yanaşma deyil. Söhbət real dünyada ekologiyanın qorunmasından, ətraf mühitin sağlamlaşdırılmasından gedir.***

*Yaşıl guşə*

## Ekoloji sivilizasiya davamlı inkişafa xidmət edir



Ekoloji problemlərin ciddi fəsadlara yol açacağı insanlar tərəfindən hər zaman etiraf olunsa da, bu məsələnin həllinə dünyada hələ də kifayət qədər ciddi yanaşılmır. Ekologiya məsələləri bəşəri xarakter daşıyır. Yalnız dünyanın ağıllı xalqları bu problemlərin həllinə müəyyən qədər töhfə verə bilirlər. Ancaq təbiətə belə töhfənin verilməsində ekologiya amilinə yanaşmanın da böyük təsiri var. Çünki ekologiya dedikdə, sadəcə, ağaclar, meşələr, yaşıllıqlar başa düşülmür. Ümumilikdə, torpaq, su, Günəş, yaşıllıqlar, canlılar və sairin vəhdəti (inkişafı) nəzərdə tutulur. Buna görə də ətraf mühitin qorunmasında insanlarda ekoloji təfəkkürün düzgün formalaşdırılması mühüm şərtdir. Elmi ədəbiyyatda daha çox “ekoloji şüur” kimi istifadə olunan bu termin ictimai və fərdi şüurun təbiətə münasibətdə etik davranış xüsusiyyətlərini özündə əks etdirir. Bu kontekstdə ölkə başçısı cənab İlham Əliyevin Azərbaycanda ekoloji şüur və mədəniyyətin əsaslı şəkildə inkişaf etdirilməsi baxımından söylədiyi fikirlər iqtisadi-siyasi strategiya aspektindən çox əhəmiyyətlidir: ***“Biz ciddi ekoloji tədbirlər görürük. İlk növbədə, ona görə ki, ekoloji vəziyyətin yaxşı olmaması insanlara mənfi təsir göstərməsin. Təmiz hava, təmiz su, təmiz ətraf mühit – biz bütün bunları ona görə edirik ki, insanların sağlamlığını qoruyaq. Yəni bu sahəyə ciddi diqqət göstərilməlidir”.*** Bu fikir yüksək səviyyədə elmi təhlilə ehtiyac duyulan vacib tezislərdəndir və müasir ekoetikanın inkişafına böyük təsir göstərmiş amerikalı alim Aldo Leopoldun “torpaq etikası” tezisləri çərçivəsində təhlil oluna bilər. Belə ki, Leopoldun torpaq etikası anlayışında torpağa sırf ərazi deyil, insan, bitki və heyvanların həyat tsiklini davam etdirməyə imkan verən enerji mənbəyi kimi yanaşılır. Ümumilikdə, yuxarıda deyilən tezislərə belə yanaşma ortaya qoymaq olar ki, ekoloji təfəkkür insanın ətraf mühitdən asılılığının dərkidir.

İndi isə bu təfəkkürə istinad edərək muxtar respublikada həyata keçirilən ekoloji siyasətin mahiyyətinə varmağa çalışaq. Kəskin kontinental iqlimə malik regionun onsuz da az örtüyə malik yaşıllıqlarının sahəsi ötən əsrin sonlarında məlum səbəblərə görə daha da azalmış, muxtar respublika ərazisinin 0,6 faizinə bərabər olmuşdu. Ötən dövr ərzində bu sahədə həyata keçirilən tədbirlər yaşıllıqların 10 faizdən çox artırılmasına gətirib çıxarmışdır. Nəzərə alaq ki, yeni yaşıllıqların, meşə massivlərinin salınması praktik baxımdan ən böyük texniki layihələrin həyata keçirilməsindən daha çətindir. Çünki istənilən layihəni yerinə yetirmək üçün əgər maliyyə imkanları varsa, müəyyən müddətdə başa çatdırmaq mümkündür. Yaşıllıq sahələrinin yaradılmasına isə təkcə maliyyə kifayət etmir, zəhmətkeşlik, qayğı, səbir, təbii təsirlərdən qorumaq kimi vasitələr önə keçir. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, bu tədbirlərin həyata keçirilməsində inzibati metodlardan istifadəyə yer verilmir. Muxtar respublika rəhbərinin ağac əkini kampaniyalarında şəxsi nümunə göstərməsi, ümumiyyətlə isə ekoloji tədbirlərdə yaxından iştirak etməsi regionda ekoloji mədəniyyətin formalaşmasına mühüm təsir göstərmişdir. Bu ekoloji mədəniyyət insanların düşüncəsində təkcə ağac əkmək, onlara qulluq etməklə məhdudlaşmır. Naxçıvanın çox təmiz şəhər olmasını indi kiməsə sübut etməyə ehtiyac yoxdur. Bunu yerli əhali də, bura yolu düşən qonaqlar da etiraf edirlər. İndi Naxçıvan insanının şüuraltında şəhəri çirkləndirməmək üçün, sözün müsbət mənasında, mühafizəkar düşüncə də formalaşmışdır.

Naxçıvan Muxtar Respublikasında son illərdə tarixi-mədəni abidələrimiz olan kəhrizlərin təmiri, yeni su ehtiyatlarının yaradılması, içməli su və kanalizasiya xətlərinin yenilənməsi, məişət tullantılarının toplanması üçün bütün yaşayış məntəqələrində müvafiq qutuların qoyulması və onların vaxtaşırı daşınması, fauna və flora növlərinin qorunması, tikilən və ya yenidən qurulan hər bir obyektin ətrafında yaşıllıq və ya gülkarlıq sahələrinin yaradılması, əkin sahələrinin dövriyyəsinin artırılması, yeni suvarma xətlərinin çəkilməsi, yeni yolların salınması ilk baxışda sosial-iqtisadi tədbirlər kimi görünsə də, mahiyyətində ətraf mühitin qorunması, insanların rahat yaşaması üçün sağlam şəraitin yaradılması durur. Hələ mən burada bölgələrimizin əkin atlaslarının hazırlanması və əraziyə görə müvafiq əkinlərin həyata keçirilməsindən, torpaqların münbitliyinin artırılması üçün mütərəqqi ideyaların tətbiqindən, yerli meyvə-tərəvəz bitkilərinin arealının artırılmasından və ümumilikdə, həm kənd təsərrüfatı, həm də ekologiya sahəsində indiyədək qəbul edilmiş çoxsaylı dövlət proqramlarının icrasından danışmıram. Qeyd etdiyimiz kimi, bu sahələr müəyyən mənada bir-birindən fərqlənsə də, ümumi olaraq ətraf mühitin qorunmasına, ekologiyanın sabitliyinə təminat yaradır.

Ekoloji böhranı, təbii ki, insan yaradır. Bu problemlərin də qarşısını yalnız insan ala bilər. Nəzərdən qaçırmayaq ki, istənilən iqtisadi böhrandan sərəncam, dövlət proqramı və ya müxtəlif ölkələrin yardımı ilə çıxmaq olar, ekoloji böhrandan isə yox. Buna görə də inkişaf etmiş ölkələrdə bu parametrlər daha çox diqqətə alınır. Bəlkə də, bu gün çoxları Nyu-York şəhəri tikiləndə şəhərin mərkəzində 340 hektar ərazinin yaşıllıqlardan ötrü park sahəsi üçün ayrıldığını, 1306-cı ildə bir London sakininin küçədə adi kömür yandırdığına və bunun da nəticəsində havanı çirkləndirdiyinə görə şəhər hakimiyyəti tərəfindən edam edilməsini, İkinci Dünya müharibəsindən sonra ətraf mühitin mühafizəsi ilə bağlı müxtəlif dünya ölkələri arasında 250-dən artıq beynəlxalq müqavilə imzalandığını bilmir. Ancaq bilinən odur ki, indiki bəşəriyyət təbiətə qarşı daha amansızdır. Təbiət indi mahnılarda, poeziyada daha çox vəsf edilir. İndi təbiətə səcdə lazımdır... Onun torpağına, ağacına, suyuna... Bu, bütpərəstlik deyil... İnsan olduğumuzu dərk etməkdir!

✍ **Səbuhi HƏSƏNOV**

# Naxçıvan: dünya memarlıq irsinin gizlədilmiş xəzinəsi



2014-cü il oktyabr ayının əvvəllərində mən Naxçıvan Muxtar Respublikasına ilk səfərimi etdim. Naxçıvan şəhərində tikilmiş Möminə xatın türbəsi və Xan sarayını ziyarət etdim. Bu iki gözəl və böyük əhəmiyyət kəsb edən binalar çoxlu insanlar tərəfindən tanınır, Azərbaycan memarlığının böyük nailiyyətlərinə örnəkdir və dünya mədəniyyətinə böyük töhfələr vermişdir. Möminə xatın türbəsi möhtəşəm tarixi abidədir. Şərq memarlığının incisidir ki, bu da Azərbaycanın milli memarlığını digər ölkələrdən ayırır. Bu abidə 1186-cı ildə (Naxçıvan şəhərinin qərb hissəsində) Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatın üçün inşa etdirilmişdir. Bu abidə yerli əhali tərəfindən "Atabəy türbəsi" kimi də tanınır. Abidənin yuxarı hissəsində kufi əlifbası ilə yazılmışdır: "Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar". Abidənin hündürlüyü 34 metr olmuşdur. Lakin sonralar abidənin yuxarı hissəsinin 8 metri dağılmışdır. Bəzi tədqiqatçılara görə, bu mədəniyyət abidəsinin aşağı hissəsində Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn edilmişlər.

Təəssüf ki, bu üç məzarın daşları qarət edilmişdir. 2003-cü ildə Azərbaycan hökuməti Möminə xatın türbəsinin təmirinə başlamışdır. Abidənin yeraltı sərdabəsinin orijinal tərtibatı var və mərkəzi sütunu künclərlə onbucaq formada birləşdirilib. Abidənin yeraltı sərdabəsinin quruluş forması sonralar Qərbi Avropada, xüsusilə Qotik memarlığını xarakterizə edən binaların tikilişində tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi kufi əlifbası ilə bəzədilmişdir. Daxili isə dəyirmi günbəz formalıdır. Türbənin künc çıxıntıları kufi xətti ilə yazılmış yazılarla əhatə olunub. Bu kitabələrin uzunluğu 500 metrdən çoxdur. Türbənin qərb hissəsində müxtəlif naxış formaları vardır. Bu bölmədə abidənin səthi iki hissəyə ayrılır: aşağı hissədə giriş qapısı var, yuxarı hissə isə bəzək naxışları ilə tamamlanır. Abidəni inşa edən memarın adı və abidənin tikilmə tarixi yuxarı hissədə həkk olunub.

Türbənin daxili səthi gil ilə örtülüb və günbəzin üzərində 4 medalyon vardır. Abidənin mükəmməl tikinti üslubu, tərtibat və mədəni dəyərləri bu memarlıq abidəsinin orta əsrlərin ən gözəl əsəri olmasından xəbər verir. Tanınmış sənətşünas alim və SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü




M.V.Alpatovun sözlərinə görə: "Möminə xatın türbəsi Azərbaycanın memarları tərəfindən XII əsrdə Naxçıvanda ucaldılıb. Bu abidədə dəqiqlik və gözəllik yüksək səviyyədə xarakterizə olunub. Möminə xatın türbəsi Şərqin ən gözəl klassik əsəri kimi əbədidir. Hətta bu dövrdə Orta Avropada bu türbədəki bədii xüsusiyyətləri yaradaraq oxşar abidə inşa etmək qeyri-mümkün idi. Memarlıq dəyərləri və mədəni zənginliyi ilə birlikdə bu abidə Azərbaycanın qədim tarixini, onun qüdrətli dövlətçiliyini, mədəniyyətinin yüksək səviyyəsini və Azərbaycandakı böyük memarlıq məktəbini nümayiş etdirir".

Naxçıvan şəhərində gəzərkən mənim diqqətimi XVIII əsrdə tikilmiş digər tarixi abidə – Xan sarayı çəkdi. Şərq memarlıq üslubunda tikilmiş bu abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşadığı ev idi. Saray Naxçıvan xanı Ehsan xanın atası Kalbalı xan Kəngərli tərəfindən XVIII əsrin sonunda inşa edilib. Bu saray 3600 kvadratmetr ərazidə, kompleksin qərb hissəsində Günəşin çıxdığı istiqamətdə inşa edilmişdir.

İkimərtəbəli böyük evin yardımçı binaları, bağları, bir sıra yeni tikilmiş hovuz və bir çox dekorativ nadir ağacları var. Əvvəlki vaxtlarda saray iki hissəyə bölünmüşdü. Cənub hissəsi inzibati işlər və yüksək səviyyəli qonaqları qəbul etmək üçün, şimal hissəsi isə xanın evi kimi nəzərdə tutulmuşdur. Koridorlar binanın qarşısındadır və pilləkənlər qırmızı qum daşları ilə bəzədilmişdir ki, bu, tarixi binanın memarlıq üslubunu tamamlayaraq abidəyə xüsusi gözəllik verir.

Binanın daxilində pilləkənlər kərpiclə tikilmiş və taxta hörgü ilə möhkəmləndirilmişdir. Binanın divarları bişmiş kərpicdən hazırlanmışdır ki, onların qalınlığı 60 santimetrdən 1,1 metrə çatır. Bütün otaqlarda müxtəlifölçülü taxçalar vardır ki, bu da qədim Naxçıvan evləri üçün xarakterikdir. Binanın alt mərtəbəsində üç otaq, birinci mərtəbəsində səkkiz otaq və dəhlizlərinin üzərində açıq balkon girişi vardır. Xan sarayının cənub zalı çox dəbdəbəlidir. Qonaq otaqlarının böyük pəncərələri var. Hazırda sarayın şimal bölməsi muzey kimi fəaliyyət göstərir və hər il bura minlərlə xarici qonaqlar gəlir. Xan sarayının ümumi sahəsi 382 kvadratmetrdir. Xan sarayının cənub divarında lampa yerləri var, bu divarlar güzgü şüşələri və həndəsi naxışlarla bəzədilib. Həmin zal qonaqları qəbul etmək üçün uyğunlaşdırılıb.

Hazırda saray içərisində misdən hazırlanmış əl işləri, saxsı qablar, qədim kişi və qadın geyim dəstləri nümayiş etdirilir. Bu saray, əlbəttə, Azərbaycanın Naxçıvan regionunun tarixi və memarlıq xəzinələri haqqında daha çox öyrənmək istəyən qonaqlar və elm işçiləri üçün ən vacib yerdir.

**Peter TASE**
***Amerika Birləşmiş Ştatları***
***"Foreign Policy News"***
***informasiya portalı***





## Yüksəkixtisaslı heyət Naxçıvanda növbəti açıq ürək əməliyyatları aparıb

***Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikama gətirilməsi və əztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının burada təşkili artıq ənənə halını alıb.***

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qurulmuş müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada mürəkkəb cərrahi əməliyyatların aparılmasına imkan verir. Yüksəkixtisaslı həkim briqadaları yerli həkimlərlə birgə hər il göz, TUR, açıq ürək, neyrocərrahi, travmatoloji, uroloji, invaziv yolla ürək əməliyyatlarını uğurla həyata keçirirlər.

Mərkəzi Neftçilər Xəstəxanası Ürəkdamar xəstəlikləri şöbəsinin 9 nəfərlik heyəti Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə bu il ikinci dəfə – fevralın 7-dən 10-dək Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində olub, yerli həkimlər tərəfindən müayinə olunaraq qeydiyyata götürülmüş və əməliyyatı planlaşdırılmış xəstələr üzərində 11 açıq ürək-aortakoronar şuntlama əməliyyatı aparıb. Kardiocərrahlardan Seymur Musayevin, Fərid Hüseynovun, Nurlana Mahmudovanın, Ramal Həsənovun, reanimatoloq-anestezioloq Aynurə Qasımovanın və əməliyyat tibb bacılarının təmsil edildiyi heyət xəstələri müxtəlif kardioloji müayinələrdən keçirib, xəstələrdə müşahidə olunan gizli ürək xəstəliklərinin və onların risk amillərini araşdırıb, ürək xəstəliyi aşkarlanan xəstələrə tibbi məsləhət və tövsiyələr veriblər.

Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiovaskulyar cərrahı İntiqam Fətullayev, reanimasiya, anestezioloji tibb bacıları da iştirak ediblər.

Akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin Uşaq ürək cərrahiyyəsi şöbəsinin invaziv kardioloqu Elnur İmanov da bu müddət ərzində Diaqnostika-Müalicə Mərkəzində fəaliyyət göstərib, 12 nəfərdə exokardioqrafiya, 7 nəfərdə isə koronar angioqrafiya müayinələri aparıb.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

***"Naxçıvan" Universitetində Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu əməkdaşlarının və Erasmus Plus Milli Ofisi rəhbərinin iştirakı ilə keçirilən tədbiri universitetin tədris işləri üzrə prorektoru, dosent İbrahim Kazımbəyli açaraq keçirilən tədbirin əhəmiyyətindən bəhs edib.***

## "Erasmus plus məlumatlandırma günü" keçirilib

Universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Gülşən Orucova tədbirdə çıxış edərək bildirib ki, "Naxçıvan" Universiteti respublikamızın bir çox ali məktəbləri ilə yanaşı, çoxsaylı xarici universitetlər və beynəlxalq qurumlarla da əməkdaşlıq edir. Bu əməkdaşlıqlar ortaq elmi proqramların və konfransların keçirilməsinə, tələbə mobilliyinin artırılmasına, müəllim və tələbə mübadilələrinin həyata keçirilməsinə imkan verir.

Vurğulanıb ki, universitet 2012-ci ildən etibarən Avropa Birliyi tərəfindən maliyyələşdirilən "Tempus" layihələrində iştirak edir. Partnyor olaraq qoşulduğumuz ilk layihə Qafqaz Universiteti tərəfindən qazanılan E-NOTES layihəsi olub. 2013-cü ildən etibarən isə universitet yeni bir "Tempus" layihəsinə qoşulub. Bu, Almaniyanın Münhen Lyudviq Maksimilians Universitetinin koordinatoru olaraq hazırladığı və "Müasir xarici dil tədrisi Tempus" layihəsidir.

Erasmus Plus Milli Ofisinin rəhbəri Pərviz Bağırov çıxış edərək bildirib ki, müasir dövrdə Avropa ölkələrinin təhsil sistemlərinə inteqrasiya aktuallıq kəsb edir. Bu baxımdan həyata keçirilən tədbirlər arasında Avropa təhsil prosesini özündə əks etdirən Erasmus plus proqramlarının mühüm əhəmiyyəti var. Erasmus plus tərəfdaş ölkələrdəki təhsil müəssisələrinin Avropadakı universitetlərlə əməkdaşlığını nəzərdə tutur. Bu əməkdaşlıq təhsildə Avropa standartlarına dair təcrübənin bölüşülməsi, bazar iqtisadiyyatına uyğun təhsil gündəliklərinin və proqramlarının müzakirə olunması, müasir ədəbiyyatla təminat, tədrisin səviyyəsinin artırılması üçün məşğələlər, tələbələrin xaricdə təhsil almaları, universitetlərdə idarəetmənin təkmilləşdirilməsi, ali təhsildə islahatlar, yeni informasiya texnologiyalarının tətbiqi kimi məsələlərin həllinə xidmət edir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

***"Naxçıvan" Universitetinin***
***mətbuat xidməti***

### *İtmişdir*

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Nəcəfova Səkinə Ələkbər qızının adına olan JN-393B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Mirzəyeva Səkinə Qəmbər qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Həsənzadə Xatirə Səfər qızının adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 103**